**“Təsdiq edilmişdir”**

**Əmanətlərin Sığortalanması Fondunun**

**Himayəçilik Şurasının 8 iyul 2011-ci il tarixli (26 saylı protokol) qərarı ilə**

# İştirakçı banklar tərəfindən əmanətlərin sığortalanmasına dair ictimaiyyətin məlumatlandırılması
# <u>QAYDALARI</u>

Bakı - 2011

# 1. ÜMUMİ MÜDDƏALAR

1.1. “İştirakçı banklar tərəfindən əmanətlərin sığortalanmasına dair ictimaiyyətin məlumatlandırılması” Qaydaları (bundan sonra – Qaydalar)

“Əmanətlərin sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununa (bundan sonra - ƏSQ) uyğun olaraq hazırlanmış və iştirakçı banklar tərəfindən ictimaiyyətin əmanətlərin sığortalanmasına dair məlumatlandırılması qaydalarını müəyyən edir.

1.2. Bu Qaydalar iştirakçı banklar tərəfindən Əmanətlərin Sığortalanması Fondunun iştirakçı olması barədə, əmanətlərin sığortalanması və kompensasiyaların ödənilməsi şərtləri haqqında ictimaiyyətin məlumatlandırılması, həmin məlumatın əmanətçilər tərəfindən sərbəst şəkildə əldə edə biləcəkləri yerlərdə və anlaşıqlı formada yerləşdirilməsi, habelə əmanətçilər tərəfindən müvafiq məlumatın əldə edilməsi üçün onların yazılı və şifahi sorğularının cavablandırılması məsələlərini tənzimləyir.

1.3. Bu Qaydalar Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra - Fond) dövlət qeydiyyatına alınmış “ADIF – Əmanətləriniz sığortalanır!” əmtəə nişanının (bundan sonra – “Əmtəə nişanı”) iştirakçı banklarda istifadəsi qaydalarını tənzimləyir.

1.4. Bu Qaydaların müddəaları iştirakçı banklarda əmanətlərin sığortalanmasına dair əmanətçilərin məlumatlandırılması məsələlərində banklara texniki-təşkilati yardım göstərilməsi məqsədi daşıyır. Bu Qaydalarda əmanətlərin sığortalanması və iştirakçı bankların əməliyyatları haqqında əmanətçilərdə xoş təsəvvürün yaradılması məqsədilə ictimaiyyətin məlumatlandırılmasının istiqamətlərinin vahid bir şəklə salınması iştirakçı banklara izah olunur.

# 2. Reklam yayımı ilə bağlı iştirakçı bankların öhdəlikləri

2.1. Əmanətlərin sığortalanması şərtlərinin və Fondun funksiyalarının əmanətçiləri çaşdıra bilən yanlış müqayisə edilməsi və onların reklam yayımı, habelə sövdələşmə zamanı əmanətçinin seçmə sərbəstliyinə təsir edə biləcək qanunsuz reklam üsullarından istifadə edilməsinə yönəldilmiş hərəkətlər yolverilməzdir.

2.2. Reklamlarda fiziki şəxslərin etimadından, yaxud onların təcrübəsizliyindən sui-istifadə etməklə əmanətlərin sığortalanmasına və Fondun funksiyalarına dair əhəmiyyətli informasiyanın müəyyən hissəsini qəsdən gizlətməklə əmanətçiləri yanlış istiqamətləndirmək, habelə reklamın yayımı anında digər iştirakçı bankların mövqe və hüquqları ilə müqayisə (sənədli şəkildə təsdiqlənmədiyi halda "ən", "yalnız" "təkcə" və bu kimi digər terminlərdən istifadə) yolverilməzdir.

2.3. Maliyyə (o cümlədən bank) xidmətlərinin, hüquqi və fiziki şəxslərin pul vəsaitlərinin istifadəsi ilə bağlı digər xidmətlərin reklamının istehsalı, yerləşdirilməsi və yayımında reklam olunan xidmətlərə birbaşa aid olmayan əmanətlərin sığortalanmasına və Fondun fəaliyyətinə dair kəmiyyət xarakterli məlumatların yayılması yolverilməzdir.

2.4. İştirakçı bank reklam istehsalına təqdim etdiyi əmanətlərin sığortalanmasına və Fondun funksiyalarına dair məlumatın məzmununa görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyır.

2.5. Reklam haqqında qanunvericiliyinin pozulması faktları aşkar edildikdə, Fond müvafiq dövlət orqanına qanunvericiliklə nəzərdə tutulmuş qaydada müraciət edir və əks reklamın həyata keçirilməsini tələb edir.

2.6. Fond reklam haqqında qanunvericiliyin tələblərinin pozulması, əmtəə nişanından qanunsuz istifadə və/və ya əmanətlərin sığortalanması haqqında yanlış məlumatın çatdırılması ilə əlaqədar olaraq işgüzar nüfuzunun müdafiəsi və dəymiş zərərin ödənilməsi ilə bağlı məhkəməyə müarciət edə bilər.

## 3. İştirakçı banklar tərəfindən əmanətçilərin məlumatlandırılması istiqamətləri

3.1. İştirakçı banklar aşağıdakı məlumatların fəaliyyət göstərdikləri binada və filliallarının yerləşdiyi binada, əmanətçilərə xidmət göstərilən yerlərdə yazılı formada verilməsini (yerləşdirilməsini) təmin etməlidirlər:

3.1.1. İştirakçı bankın Fonda üzvlüyü və Fondun reyestrinə daxil edilməsini təsdiq edən Şəhadətnamənin rəngli surətini;

3.1.2. Qorunan əmanətlər üzrə kompensasiyaların ödənilməsi qaydaları və həcmi, qorunan və qorunmayan əmanətlər və əmanətçilər haqqında məlumat, sığorta hadisəsinin anlayışı, əmanətçilərin

kompensasiyaların alınması üçün Fonda və ya seçilmiş agent banka müraciət etmə qaydaları, əmanətçilərin əmanətlərinin kompensasiya olunmayan hissələrinin (qalıq hissələrinin) iştirakçı bankdan tələb edilməsi qaydaları haqqında məlumat daşıyıcılarının (bukletin, yaddaş kitabçasının) mətnini (**bu Qaydalara 1 nömrəli Əlavə**);

3.1.3. Fondun əmtəə nişanının təsvirini (**bu Qaydalara 2 nömrəli Əlavə**);

3.1.4. Fondun rekvizitlərini: tam adını, poçt ünvanını, elektron poçt ünvanını, internet səhifəsinin ünvanını, "qaynar xətt (941)" və telefon nömrələrini.

3.2. Bu Qaydaların 3.1-ci bəndində qeyd edilən məlumatların iştirakçı bankın və/və ya onun filialının yerləşdiyi binada əmanətçilərin sərbəst şəkildə əldə edə biləcəkləri və ya bu məqsəd üçün müəyyən edilmiş yerlərdə yerləşdirilməsi tələb olunur.

3.3. ƏSQ-nin müddəalarından irəli gələn tələblərin yerinə yetirilməsi üçün iştirakçı bank aşağıdakı tədbirləri həyata keçirməlidir:

3.3.1. Fondun iştirakçısı olması haqqında əmanətçilərin məlumatlandırılması zamanı iştirakçı bankların reyestrində qeydiyyat nömrəsinin əmanətçiyə bildirilməsini, habelə Fond tərəfindən iştirakçı banka təqdim edilmiş üzvlük şəhadətnaməsi ilə tanışedilməsini;

3.3.2. Bankın əməkdaşları, xüsusilə də bank hesablarının açılması və əmanətlərin qəbul edilməsi üzrə cavabdeh şəxslər sırasından Fondun iştirakçısı olması haqqında əmanətçilərin məlumatlandırılmasına cavabdeh olan məsul işçilərin seçilməsinin təmin edilməsini;

3.4. Əmanətlərin sığortalanması ilə əlaqədar iştirakçı banka hər hansı bir əmanətçidən yazılı sorğu daxil olduğu halda Bank həmin sorğunu anlaşıqlı formada cavablandırır. Bank əmanətçiyə "qaynar xətt" telefon nömrələri vasitəsilə və ya yazılı formada Fonda müraciət etməsini tövsiyə edə bilər.

## 4. Bank əmanəti və bank hesabı müqavilələri vasitəsilə əmanətçilərin məlumatlandırılması

4.1. İştirakçı bankda əmanətçilərlə bank əmanəti və / və ya bank hesabı müqavilələrinin bağlanması zamanı aşağıdakı məlumatlar əmanətçilərə şifahi və ya yazılı formada bildirilməlidir:

4.1.1. Əmanətçi tərəfindən banka verilən ilkin məlumata (əmanətçinin adı, atasının adı və soyadı, qeydiyyat ünvanı, poçt ünvanı, şəxsiyyətini təsdiq edən sənədin növü və rekvizitləri) sonradan hər hansı bir dəyişiklik edilməsi haqqında bankın xəbərdar edilməsinə dair əmanətçinin öhdəliyinin olmasını;

4.1.2. Əmanətçi tərəfindən banka verilən ilkin məlumata sonradan hər hansı bir dəyişiklik edilməsi haqqında bankın xəbərdar edilməməsinin sığorta hadisəsi baş verdikdə əmanətçi üçün mənfi nəticələrin yarada biləcəyini (məsələn, kompensasiya ödənilməsi üçün müraciət edən əmanətçinin ərizəsinə daha uzun müddətə baxılması, əmanətçinin eyniləşdirilməsinin mümkün olmaması səbəbindən kompensasiyanın ödənilməsindən imtina edilməsi və s.);

4.1.3. Bank tərəfindən əmanətçiyə verilən ilkin məlumata sonradan edilə biləcək dəyişikliklər haqqında əmanətçinin xəbərdar edilməsinə dair bankın öhdəliyinin olmasını.

4.2. İştirakçı bank tərəfindən əmanətçilərlə bağlanılmış bank əmanəti və / və ya bank hesabı müqavilələrinə bu Qaydalara 3 nömrəli Əlavədə nəzərdə tutulmuş bəndlər daxil edilməlidir.

## 5. İştirakçı banklar tərəfindən Fondun əmtəə nişanından istifadə olunması

5.1. İştirakçı banklar tərəfindən Fondun əmtəə nişanından bu Qaydalarla müəyyən edilmiş qaydada istifadə edilə bilər.

5.2. Fond əmtəə nişanının istifadəsi ilə əlaqədar iştirakçı bankları lisenziya müqaviləsinin bağlanmasından və lisenziya ödənişlərinin ödənilməsindən azad edərək bu Qaydalarla müəyyən edilmiş hüdudlar çərçivəsində əmtəə nişanından sərbəst istifadə edilməsinə icazə verir.

5.3. Fondun əmtəə nişanından istifadə edilməsi zamanı nişanın hər-hansı bir elementinin və ya rənginin (rəng birləşməsinin) çıxarılması, dəyişdirilməsi və ya onlara əlavə edilməsi, habelə nişanın xarici görünüşünün uyğunluğunun və digər əhəmiyyətli əlamətlərinin təhrif edilməsinə yol verilmir.

5.4. İştirakçı bank Fondun əmtəə nişanının xarici görünüşünü müəyyən edən uyğunluqları və digər əhəmiyyətli əlamətləri pozmamaq şərti ilə nişanın ölçüsünü Fondla razılaşdırmaqla dəyişdirə bilər.

5.5. İştirakçı bank Fondun əmtəə nişanını əməliyyat kassalarının şüşələrində, məlumat stendlərində, bankın binasının girişində, bankın bankomatlarında, bankın illik hesabatlarında, müştərilərə verilən bank kartlarında və bankın müştərilərinin məlumatlandırılması üçün digər məlumat daşıyıcılarında yerləşdirə bilər. Fondun əmtəə nişanının əməliyyat kassalarının şüşələrində, məlumat stendlərində və (və ya) bankın binasının girişində yerləşdirilməsi zamanı nişanın ölçüsü dəyişdirilə bilməz.

5.6. Hər hansı bir fiziki şəxslə bank əmanəti və/və ya bank hesabı müqaviləsi bağlanılan zaman Fondun əmtəə nişanı həmin müqavilənin blankına daxil edilə bilər. Bank əmanəti və/və ya bank hesabı müqavilələrinin blanklarında, əmanət kitabçalarında və adlı depozit sertifikatlarında Fondun əmtəə nişanı istifadə edilərkən ağ-qara rənglərlə təsvir edilməlidir.

5.7. İştirakçı bank Fondun əmtəə nişanını bank sisteminə inamın artırılması məqsədi ilə istifadə edə bilər.

5.8. İştirakçı bank Fondun əmtəə nişanını öz internet səhifəsində yerləşdirə bilər.

## 6. YEKUN MÜDDƏALAR

Bu Qaydalar Fondun Himayəçilik Şurası tərəfindən təsdiq edildiyi gündən qüvvəyə minir.

**“İştirakçı banklar tərəfindən əmanətlərin sığortalanmasına dair ictimaiyyətin məlumatlandırılması” Qaydalarına**

**1 nömrəli əlavə**

## Qorunan əmanətlər üzrə kompensasiyaların alınması qaydaları və kompensasiya məbləği

## 1. Qorunan əmanətçilər və əmanətlər

Əmanətçi ilə bağlanılmış bank əmanəti və / və ya bank hesabı müqaviləsinə, habelə qanunvericiliyə müvafiq olaraq həm milli, həm də xarici valyutada qəbul edilmiş qorunan əmanət Fond tərəfindən ƏSQ-yə uyğun olaraq sığortalanır (hesablanmış faizlər də daxil olmaqla).

Aşağıdakı əmanətlər qorunmayan əmanətlərdir:

- adsız qiymətli kağızların (adsız depozit sertifikatlarının) yerləşdirilməsi yolu ilə cəlb edilmiş pul vəsaitləri;
- Bankın Azərbaycan Respublikası ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb edilmiş əmanətlər;
- cinayət yolu ilə əldə edilmiş pul vəsaitinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;
- cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;
- üzərinə həbs qoyulmuş əmanətlər;
- cəlb edildiyi günə illik ____ dərəcəsindən yuxarı faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər (bu faiz dərəcəsi Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə razılaşdırılmaqla Fondun Himayəçilik Şurasının qərarı ilə müəyyən edilir və dəyişkəndir);[i]
- fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açıdığı bank hesablarındakı pul vəsaitləri;
- fiziki şəxslərin Bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri;

- əmanətçilərin Banka olan borcunun əsas məbləği və faizləri həcmində əmanətləri;
- Bank qarşısında öhdəliklərin təminatı olan əmanətlər.

**Əmanətçi dedikdə Bankda əmanəti (və ya pul vəsaiti) olan, bank əmanəti və ya bank hesabı müqavilələri və ya qanunvericilik əsasında əmanətə sərəncam vermək hüququ olan şəxs başa düşülür.**

**Qorunan əmanətçi dedikdə sığorta hadisəsi baş verdikdə əmanəti (və ya pul vəsaiti) Fond tərəfindən kompensasiya məbləği həddində kompensasiya olunacaq fiziki şəxs başa düşülür.**

Aşağıdakı əmanətçilər qorunmayan əmanətçilərdir:

- Bankın Müşahidə Şurasının, Audit Komitəsinin, İdarə Heyətinin üzvləri və onların yaxın qohumları (ər-arvad, onların valideynləri və övladları, o cümlədən övladlığa götürülənlər, bacı və qardaşları);
- Bankın 10 faiz və daha çox səsvermə hüququ verən səhmlərinə malik olan şəxslər və onların yaxın qohumları (ər-arvad, onların valideynləri və övladları, o cümlədən övladlığa götürülənlər, bacı və qardaşları);
- Kompensasiyaların ödənilməsi barədə elanın ilk dəfə dərc edildiyi tarixdən əvvəlki təqvim ili ərzində bankın auditini keçirmiş kənar auditorlar.

## 2. Sığorta hadisəsi

Qorunan əmanətçinin kompensasiya alması hüququ sığorta hadisəsi baş verdikdə yaranır. Sığorta hadisəsi dedikdə aşağıdakı hallar başa düşülür:

- Bankın məcburi ləğvi və ya müflis elan olunması barədə məhkəmə qərarının qüvvəyə minməsi,
- Yaxud bankın əmanətçilər qarşısında əmanətlər üzrə öhdəlikdərinin yerinə yetirilməsinə moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və bankın əmanətçilər qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsi faktının Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq edilməsi.

İştirakçı bankda sığorta hadisəsi hesab olunan hallardan hər hansı birinin baş verməsi faktı Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Fonda göndərilən bildirişlə təsdiq olunur.

## 3. Qorunan əmanətlər üzrə kompensasiyanın məbləği

Sığorta hadisəsi baş verdikdə Fond tərəfindən hər bir iştirakçı bankda sığortalanmış əmanət üzrə əmanətçiyə əmanətin 100 faizi həcmində, lakin 30 (otuz) min manatdan çox olmamaq şərtilə kompensasiya ödənilir.

**Sığortalanmış əmanət dedikdə qorunan əmanətçinin qorunan əmanətinin Fond tərəfindən kompensasiya olunan hissəsi (məbləği) başa düşülür.**

Sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış faizlər də daxil olmaqla Fond əmanətlər üzrə kompensasiyaları Əmanətçiyə aşağıdakı qaydada ödəyir:

- Milli valyutada olan əmanətlər üzrə - milli valyutada;
- ABŞ dollarında olan əmanətlər üzrə - ABŞ dollarında;
- AVRO-da olan əmanətlər üzrə - AVRO-da;
- Digər xarici valyutada olan əmanətlər üzrə - ABŞ dollarında və ya AVRO-da (sığorta hadisəsinin baş verdiyi günə Azərbaycan Respublikası Milli Bankının müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çapraz məzənnə üzrə hesablanaraq).

Bir əmanətçinin bir bankda, o cümlədən bankın yerli filiallarında və şöbələrində müxtəlif valyutada (həm milli, həm də xarici valyutada) əmanətləri olduqda onlar toplanır və bir əmanət kimi manatla kompensasiya olunur. Əmanətçinin digər bankda olan əmanəti ayrıca əmanətdir (bu halda kompensasiya yalnız həmin bankda da sığorta hadisəsi baş verdikdə ayrıca ödənilir).

Bankda qorunan əmanəti olan əmanətçiyə Bank tərəfindən kredit və ya borc vəsaiti verildiyi və ya kredit xətti açıldığı və həmin kredit xəttindən istifadə olunduğu halda kompensasiya əmanətin məbləğindən sığorta hadisəsi baş verən günə kimi hesablanmış faizlər də daxil olmaqla əmanətçinin bank qarşısında öhdəliyinin məbləği çıxıldıqdan sonra qalıq əmanət üzrə ödənilir.

## 4. Kompensasiya almaq üçün Əmanətçinin müraciəti

Kompensasiya almaq üçün Əmanətçi kütləvi informasiya vasitələrində və ya Fondun internet səhifəsində göstərilən ünvana (Fonda və ya agent banka) yazılı ərizə [ii] ilə müraciət edir. Müraciəti Əmanətçinin səlahiyyətli nümayəndəsi də edə bilər. Bu halda nümayəndə notariat qaydasında təsdiq olunmuş etibarnaməni təqdim etməlidir.

**Agent bank dedikdə qorunan əmanətçilərə Fondun adından və Fondun hesabına kompensasiyanın ödənilməsi üçün Fond tərəfindən daxili qaydalar əsasında seçilən və bağlanmış müqavilə əsasında bu fəaliyyəti həyata keçirən iştirakçı bank (banklar) və ya xarici bankın yerli filialı başa düşülür.**

Fond aşağıdakı kütləvi informasiya vasitələrində Əmanətçiyə kompensasiya ödənilməsi yeri və vaxtı haqqında elan verir:

- AzTV;
- İctimai TV;
- Azərbaycan qəzeti;
- Respublika qəzeti;
- Xalq qəzeti;
- AzərTAc informasiya agentliyi;
- APA informasiya agentliyi.

Ərizə şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiq edən sənəd təqdim edilməklə Fonda və ya agent banka şəxsən təqdim edilir. Ərizəyə aşağıdakı sənədlərin surətləri əlavə edilir:

- Şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiq edən digər sənədin surəti;
- Əmanət kitabçası və ya əmanəti təsdiqləyən digər sənədin surəti;
- Bank əmanəti müqaviləsinin surəti;
- Notariat qaydasında təsdiq olunmuş etibarnamənin (Əmanətçinin səlahiyyətli nümayəndəsi müraciət etdikdə) surəti.

Kompensasiyanın alınması üçün qanunvericiliyə uyğun olaraq əmanətçinin özü deyil, qanuni nümayəndəsi qismində valideynlər, övladlığa götürənlər, qəyyumlar və ya himayəçilər, vərəsələr və ya vəsiyyət icraçıları müraciət etdikdə əlavə olaraq aşağıdakı sənədlər təqdim olunmalıdır:

- Azyaşlılar (14 yaşına qədər olan şəxslər) və yetkinlik yaşına çatmamış əmanətçilərin (14-18 yaşlar arası) qanuni nümayəndələri:

  - valideynlər– azyaşlının və ya yetkinlik yaşına çatmayan şəxsin doğum haqqında şəhadətnaməsi.

  - övladlığa götürənlər– doğum haqqında şəhadətnamə və övladlığa götürmə haqqında şəhadətnamə.

  - qəyyumlar və himayəçilər – azyaşlının və yetkinlik yaşına çatmayan şəxsin doğum haqqında şəhadətnaməsi; azyaşlıya qəyyumun, yetkinlik yaşına çatmayan şəxslərə isə himayəçinin təyin olunması barədə yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanının qərarı.

- Fəaliyyət qabiliyyəti olmayan (məhdud fəaliyyət qabiliyyətli) əmanətçilərin qanuni nümayəndələri:

  - fəaliyyət qabiliyyəti olmayan (məhdud fəaliyyət qabiliyyətli) əmanətçinin şəxsiyyətini təsdiq edən sənəd;

  - fəaliyyət qabiliyyəti olmayan əmanətçiyə qəyyumun, məhdud fəaliyyət qabiliyyətli əmanətçiyə himayəçinin təyin olunması barədə yaşayış yeri üzrə qəyyumluq və himayəçilik orqanının qərarı.

- Əmanətçinin vərəsəsi və ya vəsiyyət icraçısı müraciət etdikdə notariat orqanı tərəfindən verilmiş şəhadətnamə və ya məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi.

Təqdim olunmuş sənədlər Fondun (agent bankın) məsul şəxsi tərəfindən qəbul edilərək onların düzgün olub olmaması yoxlanılmalıdır. Bankın əmanətçilər qarşısında öhdəliklərinin reyestrindən çıxarış Əmanətçiyə

verilir. Reyestrdən çıxarışda Əmanətçiyə kompensasiya olunacaq məbləğ göstərilir.

## 5. Kompensasiyanın ödənilməsi qaydası

Əmanətçinin ərizəsi kompensasiyaların ödənişi haqqında bildirişin kütləvi informasiya vasitələrində ilk dəfə dərc edildiyi gündən başlayaraq 1 (bir) il müdətində qəbul edilir. İstisna hallarda Əmanətçinin kompensasiya almaq hüququ 5 (beş) il müddətində saxlanılır.

Kompensasiya olunan məbləğ ərizə və sənədlər Fonda (agent banka) daxil olduğu və qeydə alındığı tarixdən başlayaraq 90 (doxsan) gün müddətində ödənilir. Müstəsna hallarda həmin müddət daha 90 (doxsan) gün müddətinə uzadıla bilər.

Kompensasiya məbləği Əmanətçiyə nağd şəkildə və ya Əmanətçi tərəfindən göstərilən bank hesabına köçürmə yolu ilə ödənilir.

## 6. Əmanətçinin Banka qarşı pul tələbi

Fonddan kompensasiya alan Əmanətçi sığorta hadisəsi baş vermiş Bankın kreditoru olaraq əmanətinin qalıq hissəsinin (sığortalanmayan və bu səbəbdən kompensasiya olunmayan qalıq məbləğinin) həmin bank tərəfindən kompensasiya olunmasını tələb etmək hüququnu saxlayır.

ƏSQ-nin tələblərinə uyğun olaraq əmanəti qorunan hesab edilməyən və bu səbəblə Fond tərəfindən sığortalanmayan əmanətçi sığorta hadisəsi baş vermiş Bankın kreditoru olaraq əmanətinin həmin Bank tərəfindən kompensasiya olunmasını tələb etmək hüququnu saxlayır.

**“İştirakçı banklar tərəfindən əmanətlərin sığortalanmasına dair ictimaiyyətin məlumatlandırılması” Qaydalarına**

**<u>2 nömrəli əlavə</u>**

## 1. Əmtəə nişanının təsviri

**ADIF – Əmanətləriniz sığortalanır!**

Əmtəə nişanı Azərbaycan Respublikasının Standartlaşdırma, Meterologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən 10 noyabr 2010-cu il tarixdə qeydə alınmışdır.

## 2. Əmtəə nişanının elementləri

Əmtəə nişanı 8x8 ölçüdə kvadrat içərisində “Azərbaycan Əmanətlərin Sığortalanması Fondu” və ingilis dilində qarşlığı olan “Azerbaijan Deposit Insurance Fund” sözləri ilə dairəyə alınmış çətir və çətirin orta hissəsində “ADIF” abbeviaturası olan loqo və loqonu müşaiyət edən aşağı hissədə “ADIF – Əmanətləriniz sığortalanır!” lozunqundan ibarətdir.

Əmtəə nişanı tünd göy, açıq mavi və ağ rənglərdən ibarətdir.

Əmtəə nişanının tövsiyyə olunan ölçüsü – 8x8 sm-dir.

**“İştirakçı banklar tərəfindən əmanətlərin sığortalanmasına dair ictimaiyyətin məlumatlandırılması” Qaydalarına**

**3 nömrəli əlavə**

## Əmanətçi ilə bağlanılan bank əmanəti və /və ya bank hesabı müqaviləsinə daxil edilən bəndlər

«Maddə __. Əmanətlərin Sığortalanması Fondu, Bank və Əmanətçi.

1. Bank «___»________200_-ci il tarixindən Əmanətlərin Sığortalanması Fondunun (bundan sonra – «Fond») iştirakçısı olaraq (__saylı Şəhadətnamə) Fonda sığorta haqqı ödəyir (bu haqq Əmanətçidən tutulmur).

2. Bank tərəfindən Əmanətçidən bütün müvafiq valyutalarda qəbul edilmiş əmanətlər Fond tərəfindən sığortalanır.

3. Sığorta hadisəsi - Bankın məcburi ləğvi və ya müflis elan olunması, Bankın Əmanətçi qarşısında əmanət üzrə öhdəlikdərinin yerinə yetirilməsinə məhkəmə tərəfindən moratorium tətbiq edilməsi barədə məhkəmə qərarının qüvvəyə minməsi və Bankın Əmanətçi qarşısında öz öhdəliklərini yerinə yetirə bilməməsi faktının Azərbaycan Respublikası Mərkəzi Bankı tərəfindən təsdiq edilməsidir.

4. Sığorta hadisəsi baş verdikdə, Fond aşağıdakı kütləvi informasiya vasitəsilərində Əmanətçiyə kompensasiya ödənilməsi yeri və vaxtı haqqında elan verir:

a) AzTV;
b) İctimai TV;
c) Azərbaycan qəzeti;
d) Respublika qəzeti;
e) Xalq qəzeti;
f) AzərTAc informasiya agentliyi;
g) APA informasiya agentliyi.

5. Fonddan kompensasiya almaq üçün Əmanətçi kütləvi informasiya vasitəsilərində göstərilən yerə şəxsiyyət vəsiqəsini vəya şəxsiyyəti təsdiq edən digər sənədi təqdim etməklə yazılı ərizə ilə müraciət edir. Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

a) Şəxsiyyət vəsiqəsi və ya şəxsiyyəti təsdiqləyən digər sənədin surəti;

b) Əmanət kitabçası və ya əmanəti təsdiqləyən digər sənədin surəti;
c) Bank əmanəti müqaviləsinin surəti.

Ərizənin verildiyi tarixdən etibarən 90 (doxsan) gün müddətində Fond tərəfindən Əmanətçiyə kompensasiya ödənilməlidir. Fond əmanətçilərin ərizələrini kompensasiya ödənişi haqqında bildirişin ilk dəfə dərc edildiyi gündən başlayaraq bir il ərzində qəbul edir. Əmanətçinin kompensasiya almaq hüququ Fondun kompensasiyaların ödənilməsi haqqında elanı ilk dəfə dərc etdiyi gündən 5 (beş) il müddətində saxlanılır.

6. Aşağıdakı əmanətlər qorunan əmanətlərə aid edilmir:

a) adsız borc qiymətli kağızlarının (adsız depozit sertifikatlarının) yerləşdirilməsi yolu ilə cəlb edilmiş pul vəsaitləri;

b) bankın Azərbaycan Respublikasının ərazisindən kənarda açılmış bölmələri tərəfindən cəlb olunmuş əmanətlər;

c) cinayət yolu ilə əldə edilmiş pul vəsaitinin və ya digər əmlakın leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı şübhəli əməliyyatlar nəticəsində qanunvericiliyə müvafiq qaydada müəyyən edilmiş əmanətlər;

d) cinayətin törədilməsi nəticəsində yaranması məhkəmə qərarı ilə təsdiq edilmiş əmanətlər;

e) üzərinə həbs qoyulmuş əmanətlər;

f) Cəlb edildiyi günə ____% - dən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər;

g) fiziki şəxslərin sahibkarlıq fəaliyyəti ilə əlaqədar açdığı bank hesablarındakı pul vəsaitləri;

h) fiziki şəxslərin bankın vəkalətli idarəetməsində olan pul vəsaitləri;

i) ödəniş müddətlərinin başa çatıb-çatmamasından asılı olmayaraq, əmanətçinin banka olan borcunun əsas məbləği və faizləri həcmində əmanəti;

j) bank qarşısında öhdəliklərin təminatı olan əmanətlər.

7. Fond sığorta hadisəsi baş verdikdə əmanətçiyə əmanətin məbləğinin 100 faizi, lakin 30 (otuz) min manatdan çox olmayaraq kompensasiya ödəyir.

8. Fond kompensasiyanı milli valyutada olan əmanət üzrə manatla, ABŞ dollarında olan əmanət üzrə ABŞ dollarında, avroda olan əmanət üzrə isə

avroda Əmanətçiyə ödəyir. Əmanət ABŞ dolları və ya avroda olmadıqda kompensasiya bu valyutaların biri ilə sığorta hadisəsinin baş verdiyi günə Azərbaycan Respublikası Mərkəzi Bankının müvafiq valyutalar üzrə müəyyən etdiyi rəsmi məzənnələr əsasında hesablanmış çarpaz məzənnə üzrə hesablanır və ödənilir. Fond əmanət üzrə faizləri sığorta hadisəsinin baş verdiyi günə qədər hesablanmış məbləğdə Əmanətçiyə ödəyir.

9. Əmanətçinin Bankda müxtəlif valyutalarda əmanəti oldugu zaman, Fond həmin əmanətləri toplayır və bir əmanət kimi manatla kompensasiya ödəyir.
10. Bank Əmanətçinin yazılı və ya şifahi sorğularına cavab olaraq, Bankın Fonddun iştirakıçısı olması, qorunan əmanətlər və kompensasiyalar barədə Əmanətçiyə məlumat verir.

11. Əmanətçi aşağıda göstərilən ünvanda və ya əlaqə telefonları və elektron poçt vasitəsi ilə Fondla əlaqə saxlaya bilər: AZ1014, Bakı şəhəri, Bül-Bül prospekti 40 ; əlaqə tel: (99412) 596 65 91, 596 65 92, 596 65 93; Faks: (99412) 596 65 94; qaynar xətt: 941; e-mail: adif@adif.az; sayt: www.adif.az

---

[i] Əmanətçilərlə bank əmanəti və / və ya bank hesabı müqavilələri bağlanarkən həmin dövrdə qüvvədə olan faiz dərəcəsi boş xanaya daxil edilir. Fondun Himayəçilik Şurası faiz dərəcəsinin yuxarı həddinin dəyişdirilməsi barədə qərar qəbul etdikdə, Fond bu barədə qərarın mətni əlavə olunmaqla iştirakçı banklara (ən azı 5 iş günü əvvəl ) yazılı məlumat verir.

[ii] Kompensasiyanın alınması üçün ərizənin forması Fond tərəfindən müəyyən olunur və əmanətçilərin sərbəst şəkildə əldə edə bilmələri üçün agent bankın filiallarında və Fondun internet səhifəsində yerləşdirilir.